**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamənin və Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması qaydasının təsdiq edilməsi barədə" 1999-cu il 15 mart tarixli 39 nömrəli, "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə" 1999-cu il 15 mart tarixli 40 nömrəli və "Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə" 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1221-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 208 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 39 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 3, maddə 195; 2001, 10, maddə 663; 2003, 6, maddə 342; 2006, 5, maddələr 463, 472, 9, maddə 822, 10, maddə 902, 11, maddə 989; 2008, 2, maddələr 116, 125, 8, maddə 782; 2009, 6, maddə 491; 2010, 8, maddə 764; 2011, 5, maddə 454; 2012, 2, maddə 185, 5, maddə 486; 2013, 5, maddə 574, 6, maddə 747, 8, maddə 1001; 2014, 5, maddə 551, 8, maddə 1020, 12, maddə 1684; 2015, 4, maddələr 462, 468, 8, maddə 971; 2016, 2 (II kitab), maddə 385, 4, maddə 815; 2017, 4, maddə 620, 6, maddə 1246, 8, maddə 1628; 2018, 5, maddə 1118; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 sentyabr tarixli 389 nömrəli qərarı) ilə təsdiq edilmiş "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"nin 2.8-3-cü bəndinin birinci cümləsinə "hüquqi şəxslər" sözlərindən sonra "(dövlət qurumları)" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 3, maddə 196; 2001, 10, maddə 663; 2003, 6, maddə 342; 2005, 4, maddə 386; 2006, 5, maddə 463, 9, maddə 822; 2008, 2, maddə 125, 8, maddə 782; 2011, 5, maddə 455; 2012, 5, maddə 487, 7, maddə 776, 9, maddə 921; 2013, 6, maddə 575, 8, maddə 1021, 11, maddə 1462; 2015, 4, maddələr 463, 467; 2016, 2 (II kitab), maddə 386, 4, maddə 810; 2017, 4, maddələr 620, 646; 2018, 5, maddə 1119) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasnamə"nin 7.1-ci bəndinin "Qeyd"ində "10 (on)" rəqəm və sözü "20 (iyirmi)" rəqəm və sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 9, maddə 693; 2001, 11, maddə 722; 2002, 3, maddə 148, 7, maddə 455, 10, maddə 635; 2003, 10, maddə 629; 2005, 4, maddə 386, 6, maddə 534, 8, maddə 782, 10, maddə 977, 11, maddə 1061, 12, maddələr 1228, 1231; 2006, 3, maddə 297, 8, maddə 731, 9, maddə 830, 10, maddə 902, 11, maddə 994; 2008, 2, maddə 108, 4, maddə 316, 8, maddə 787; 2009, 2, maddə 148, 10, maddələr 846, 849, 12, maddə 1079; 2010, 6, maddə 555; 2011, 10, maddə 971; 2012, 3, maddə 263, 5, maddələr 489, 495, 7, maddə 777, 11, maddə 1206, 12, maddə 1354; 2013, 4, maddə 444, 5, maddə 578; 2014, 1, maddə 74, 5, maddələr 552, 589, 6, maddə 746, 8, maddə 1019, 12, maddə 1685; 2015, 12, maddə 1580; 2016, 3, maddə 611, 4, maddələr 777, 814, 6, maddə 1226, 8, maddə 1449, 11, maddə 1937; 2017, 1, maddə 135, 3, maddə 493, 6, maddə 1245, 7, maddə 1491, 9, maddə 1721, 10, maddə 1883, 12 (II kitab), maddə 2545; 2018, 2, maddə 347, 3, maddə 628, 4, maddə 789, 5, maddə 1122, 6, maddələr 1360, 1367; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 sentyabr tarixli 401 nömrəli qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 7-ci hissəsinin iyirminci abzasına "hüquqi şəxslərin" sözlərindən sonra "(dövlət qurumlarının)" sözləri əlavə edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 16 oktyabr 2018-ci il
452